# *ƏLİYEV UĞRUNDA*

Qarabağ uğrunda döyüşlər gedirdi. Vətəni qoruyan oğluma baş çəkməyə getmişdim. Tanklar hücuma keçir, top-tüfəngin səsi ətrafa yayılmışdı.

Tanklarm üstə «Əliyev uğrunda!» yazılarını görəndə qəlbim sevinclə döyündü. Heyif ki, qocalmışdım. Döyüşə bilməzdim. Amma sevinirdim ki, oğlum Qoşqar bu müqəddəs vuruşlarda idi...

Oğullarımız Horadizi azğın düşməndən təmizlədilər.

Düşünürdüm ki, Horadizin azad edilməsində üzərinə «Əliyev uğrunda!» yazılmış tanklar daha çox şücaət göstərmişdilər.

Elə ürəklərinə dahi rəhbərin məhəbbəti dolmuş döyüşçülər də!

Mən bilirəm ki, bu məhəbbətdən ilhamlanan oğullarımız tezliklə bütün torpaqlarımızı azad edəcəklər...

***Məmməd Namaz***

***Günəş öğmürlü insan. – B.: Təhsil, 2012. – S.17.***